Mədəniyyət
və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

# Komikslər

**Mədəniyyətlə dünyanı dəyiş**




ARTS COUNCIL
AZERBAIJAN
10th ANNIVERSARY 2006-2016

Program Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

Komikslər

**Mədəniyyətlə dünyanı dəyiş**

www.artscouncil.az

# Ön söz

20-ci əsrin əvvəllərindən başlayaraq komiks janrı Azərbaycanda xüsusi yer almışdı. Bu janr çoxsaylı problemləri qabardaraq rəsm vasitəsi ilə onların həll olunması yollarını göstərirdi. Müxtəlif mövzularda olan komikslər mədəniyyət, təhsil, cəmiyyətin maarifləndirilməsi  və digər sahələri özündə əks etdirirdi.

1980-ci illərdə bu janr Azərbaycan animasiyasının banisi rejissor-rəssam Nazim Məmmədov tərəfindən yenidən canlandırıldı və o, uzun illər uşaqlar üçün tərbiyəvi və nümunəvi xarakter daşıyan "Danışan Şəkillər" layihəsini yaratdı.

"Komikslər" adlı layihə 2017-ci ildə Arts Council Azərbaycan və Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramının əməkdaşlığı ilə həyata keçirilən "Mədəniyyətlə dünyanı dəyiş" kampaniyası çərçivəsində hazırlanmışdır. Layihə Azərbaycanda çalışan yaradıcı insanların problemlərini əks etdirir, daxili problemləri qabardaraq  onları müzakirə edir, həlli üçün müxtəlif yolların tapılmasında köməklik edir və düzgün istiqamətləndirməyə çalışır. Yaradıcı insanlar ölkənin inkişafında böyük rol oynayır və onların problemlərinin ölkə mədəniyyətinə, incəsənətinə və iqtisadiyyatına böyük təsiri vardır. Yaradıcı insanlar hər bir ölkə mədəniyyətinin və iqtisadiyyatının ayrılmaz hissəsidir. Onlara qayğı ilə yanaşmaq, onlara dəstək olmaq çox vacibdir.

Mədəniyyət insanları daha yaxşı anlamaq üçün ən gözəl vasitədir.

**Qeyd**

"Komikslər" layihəsi Arts Council  Azərbaycan və Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramının əməkdaşlığı  ilə həyata keçirilən "Mədəniyyət Əhəmiyyət Kəsb edir" kampaniyası çərçivəsində hazırlanmışdır.

Copyright © Arts Council Azerbaijan 2017

# Lüt rəssam

Azərbaycanda fəaliyyət göstərən rəssamların əksəriyyəti rəsm ləvazimatı alınması ilə bağlı çətinliklərlə üzləşir. Təəssüf ki, kətan Azərbaycanda istehsal olunmur. Xarici ölkələrdən ölkəmizə idxal olunan kətan daim bahalaşır və rəssamların mövcud problemlərini bir az da artırır. Bu isə mədəniyyətin inkişafına çox pis təsir edir və eyni zamanda ölkə iqtisadiyyatına da zərər vurur. Bir biri ilə bağlı olan bu problemlərin həll yolu yalnız rəssamlar tərəfindən istifadə olunan "Kətan" məhsulunu gömrük rüsumundan azad etmək olardı. Bu isə öz növbəsində rəssamlıqla məşğul olan insanların sayının çoxalmasına, mədəniyyətə marağın daha da artmasına səbəb olar və bununla da ölkə mədəniyyətinə və qtisadiyyatına böyük təsir göstərə bilərdi. Çünki, ölkədə mədəniyyət yüksəldikcə turizm və bunun sayəsində iqtisadiyyat da inkişaf edir və artır.

**Mədəniyyətin sosial inkişafa təsiri**
**Dəyərlər və münaqişələr: davranış modellərindəki dəyişikliklər, özünə inamın yaradılması, müəssisələrin yenidən təşkili, əməkdaşlıq və qarşılıqlı anlaşma prinsipləri ilə bağlı konkret nümunələr.**

Konkret mədəni kontekstlərdə sosial, eləcə də fərdi inkişaf baş verir. Bu inkişaf mədəniyyət tərəfindən təsirə məruz qalır və mədəniyyətə təsir göstərir. Mədəniyyət və sosial inkişaf arasında qabaqcadan hazırlanmış və diqqətlə layihələndirilmiş və ya spontan və plansız daimi qarşılıqlı əlaqə mövcuddur. Mədəniyyətin sosial inkişafa təsiri sosial həyatın bir çox sahəsində müşahidə edilə bilir. Buraya incəsənət və mədəniyyət sahəsində balaca uşaqların yaradıcılığının inkişafında formal və qeyri-formal təhsilin əsasən bütün səviyyələrində həlledici rol oynayan erkən uşaqlıq dövrü təhsilindən tutmuş müxtəlif nəsillərə aid və ömür boyu öyrənmə proqramlarına qədər bütün mərhələlər daxildir. Əslinə qaldıqda, mədəniyyət və yaradıcılıq fərdi inkişafı təmin edən vacib elementlərdir və bu səbəbdən, ömür boyu öyrənmə prosesinin mühüm tərkib hissələri hesab olunurlar. Çox vaxt mədəniyyət iqtisadi baxımdan əlverişsiz vəziyyətdə olan cəmiyyətlərlə qarşılıqlı əlaqə zamanı meydana çıxan sosial və iqtisadi fərqləri azaltmaq üçün interfeys və vasitə kimi istifadə edilir. Mədəniyyət empatiya yaratmaq, təcrid edilmiş icmaları dəstəkləmək, aktiv vətəndaşlığı təmin etmək və sivil cəmiyyət qurmaq imkanına sahibdir. İncəsənət və mədəniyyət davranışın dəyişməsində mühüm rol oynayır. Aparılmış tədqiqatın nəticələrinə əsasən, mədəni həyatda iştirak psixoloji duruma əhəmiyyətli dərəcədə müsbət təsir göstərə bilər. Hazırkı sosial məsələlər və dayanıqlılıq mədəniyyət və incəsənət yönümlü bir çox təşəbbüslər üçün əsas amil hesab olunur. Qeyd etmək lazımdır ki, mədəniyyət istehlakçısı (muzeylərin, teatrların ziyarət olunması, konsertlərdə iştirak və s.) olmaqla bədii və mədəni tədbirlərin təşkili prosesində bilavasitə iştirak etmək arasında müəyyən fərq vardır. Bundan əlavə, birini digərindən fərqləndirmək lazımdır. Fərdi və ictimai miqyasda özünə inamın yaradılması və qarşılıqlı anlaşma baxımından belə bir fikir mövcuddur ki, mədəniyyətyönümlü layihələrdə fəal iştiraka cəlb etməklə şəxsiyyətin davranış modellərində həqiqi və uzunmüddətli dəyişiklik yaratmaq mümkündür. Bu məlumat ziyarətçi sayının mütəmadi olaraq azalmasından əziyyət çəkən ənənəvi mədəniyyət müəssisələri üçün mühüm əhəmiyyət kəsb etməlidir. Bir tərəfdən, sözügedən tendensiya bir zamanlar yaradılmış auditoriyaların köhnəlməsi və seçim etməyə imkan verən çoxsaylı mədəni təkliflərlə bağlıdır. Digər tərəfdən isə, rəqəmsal iştirak modelləri və auditoriyalarına keçidlə əlaqədar olaraq gözləntilər kəskin dərəcədə dəyişmişdir. İnsanların istehlakçı qismində çıxış etməklə kifayətlənməyərək fəal həmmüəlliflərə çevrilməsi prosesinə həyatımızın demək olar ki, bütün aspektlərində rast gəlinir və mədəniyyət sahəsi də bu baxımdan istisna təşkil etmir. Mədəniyyət müəssisələrinin və təşkilatlarının bir çoxu bu dəyişikliklərdən xəbərdardır və müxtəlif təşəbbüslərin iştirakçısı olmağı, hətta təşkilatların şəriklərinə çevrilməyi təklif etməklə öz auditoriyalarını genişləndirməyə çalışır. Yeni auditoriyaların cəlb olunması üçün mədəniyyət təşkilatlarının davranış modelində dəyişiklik edilməsi tələb olunur. Onların bir çoxu auditoriyanın inkişafına dair proqramlar (təşkilatın həyata keçirdiyi bütün fəaliyyətlərin əsasını auditoriyanın təşkil etdiyini nəzərdə tutan yanaşma) şəklində təşkil olunmuşdur.






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı


salam)
kətan neçəyədir?
gətirmək çətindir((
gömrük rüsümları
hər dəfə artır
dəhşət!!!
yenə bahalaşdı


vəziyyət gərgindir((
pul yoxdur
bu ölkənin mədəniyyəti
necə inkişaf etsin?!
rəssamların
inkişafını boğurlar






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

# Emalatxana

Yaradıcı insanlar hər zaman azadlığa can atır və bu, onun yaradıcılığında mühüm amildir. Emalatxana yaradıcı insanın öz aləmində olması üçün, yaradıcı olmaq üçün əvəz olunmaz məkandır. Yaradıcı insanların əksəriyyəti ev şəraitində fəaliyyət göstərə bilmədiyi üçün bu sənət növündən kənarlaşır. Bəzi yaradıcı insanlara emalatxana icarəyə götürməyə maddi imkanları yol vermir. Digərlərinə isə, şəxsi vəsaitə əldə edilmiş qaraj, çardaq, köməkçi sahə, qeyri-yaşayış sahələrindən istifadə etmək istəklərinə baxmayaraq, dövlət tərəfindən qadağan olunur. "Emalatxana" adlı əhvalatda, dövlətin yaradıcı insanlara maddi yardımından söhbət getmir. Lazımi mühitin yaradılması, xüsusi yanaşma və müxtəlif yazılmayan və lazımsız qadağalardan azad edilməsi, onlara lazımi qayğıdan və dövlət təmsilçiləri tərəfindən hörmətlə yanaşılmasından bəhs edilir.

**Mədəniyyətin regional inkişaf və şəhərsalmaya təsiri. Şəhərlərin dayanıqlı inkişafı: Mədəniyyət əsas inkişaf istiqamətlərindən biri kimi**

Dayanıqlılıq anlayışının ənənəvi tərifi Birləşmiş Millətlər Təşkilatının 1987-ci il tarixli Hesabatında verilmişdir: "Dayanıqlı inkişaf gələcək nəsillərin ehtiyaclarını qarşılaması qabiliyyətinə ziyan vermədən bu günün ehtiyaclarını qarşılamağa qadir olan inkişafdır." Beləcə, Dayanıqlı Şəhərsalma ətraf-mühitin qorunması hədəflərinə nail olmaq, habelə sosial və iqtisadi mülahizələr arasında müvazinəti təmin etmək üçün bazar mexanizmlərində islahat keçirilməsi ehtiyacını qəbul edən və bu ehtiyacı qarşılayan inkişafdır.

UNESCO-nun Yaşayış yeri və Dayanıqlı Şəhərsalma haqqında III Konfransının "Şəhər mədəniyyəti və irsi" tədqiqat hesabatı şəhərləri həm miqyas, həm də mənsubiyyət və emosional sahiblik hissi baxımından "yenidən mədəniləşdirə" biləcək yeni şəhərsalma modeli yaratmağa çağırırdı. Beləliklə, günümüzün dayanıqlı şəhər konsepsiyası şəhərin ətraf mühitin problemləri ilə tanış olmasını, sosial və məkan ayrı-seçkiliyinə qarşı mübarizə aparmasını, şəhərin resurs və sərvətlərinin daha bərabər və ədalətli şərtlərlə istifadəsini təmin etməsini, sakinləri arasında, sakinləri və qonşuları arasında və ümumilikdə şəhərdə inteqrasiya və əlaqəyə xüsusi əhəmiyyət verməsini nəzərdə tutur.

Şəhərin yenidən mədəniləşdirilməsinin, başqa sözlə desək, adamların, onların təcrübə və həyat keyfiyyətlərinin şəhərsalmanın mərkəzinə gətirilməsinin hərəkətverici qüvvəsi mədəniyyətdir. Şəhərin yenilənməsi özündə yalnız iqtisadi və fiziki dəyişiklikləri deyil, həm də düşüncə tərzi və baxışların da dəyişməsini birləşdirdiyindən, mahiyyət etibarilə mədəniyyət layihəsidir. Adamların şəhərdəki dəyişikliklərdə iştirak etməsi və bu dəyişikliklərlə əlaqəsi olması onların uzunmüddətli təsirə malik olmasını təmin edir – şəhərə emosional bağlılıq və dəyişmə proseslərinə dəstək sakinləri dəyişikliyin həlledici qüvvəsinə çevirir. Şəhərsalmanın mədəni xüsusiyyətlərə əsaslanması prosesin daha kollektiv olmasına təkan verə bilər, axı mədəniyyət bizim şəhərlərimizin sakini və dünyamızın vətəndaşı kimi mövcudluğumuz haqqında məlumat verir.

Mədəni yanaşmanın şəhərsalmaya tətbiq edilməsi yeni iş yerlərinin yaradılması, mədəniyyət və qonaqpərvərlik sektorlarının, habelə yerli müəssisələrin gəlirinin artırılması yolu ilə iqtisadi dəyişikliyin təmin edilməsi deməkdir. Mədəni yanaşma şəhərsalmanın əslində şəxslər, icmalar, cəmiyyət, şəhər, onun rəhbərliyi və iqtisadi sistemlərinin bir tam şəklində inkişaf etməsinə səbəb olan təkamül prosesi olduğunu nəzərdə tutsa da, onun yuxarıda qeyd edilmiş xüsusiyyəti daha vacibdir.

Dayanıqlı şəhərsalma bir çox şəhərin köhnəlmiş infrastrukturlarla bağlı olduğu, əhalinin sürətli artımı və ictimai quruluşun dəyişməsi ilə üzləşdiyi Şərq Tərəfdaşlığı regionu üçün çox ciddi problemdir. Hətta zəngin mədəniyyət resurslarına sahib olan şəhərlər belə onları dəyişiklik və inkişafın hərəkətverici qüvvəsi kimi istifadə etməyə həmişə müvəffəq olmur. Mədəni yanaşma məhz bu məsələ ilə bağlı vacib metod və bilikləri təmin edəcək.






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı




Mədəniyyət vəYaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

# Əqli mülkiyyət

Azərbaycanda yaradıcı və istedadlı insan çoxdur. Bir birindən müxtəlif və rəngarəng ideyalarla fərqlənən sənətkarların sayı artır. Bunlarla yanaşı yaradıcı insanların ideyalarının mənimsəmə halları da artır. Yaradıcı insanların "Əqli Mülkiyyət" hüquqları qorunmur. Gənc yaradıcı insanların yaratdığı əsərlər daha məşhur və tanınmış olanlar tərəfindən mənimsənilir. Daha sonra isə özlərinin yaratdığı sənət əsəri kimi qələmə verilir. Gənc sənətkar isə heç nə sübut edə bilmir, çünki "Əqli Mülkiyyət" haqqında qanunvericilikdə bəzi boşluqlar mövcuddur. Nəticədə kim kimin əsərini istəsə istifadə edərək başqasının hesabına məşhur olur. Müəllif, yaradıcı və kreativ insan heç kim tərəfindən tanınmadığı üçün kənarda qalır və onun hüquqları heç kəsə maraqlı olmur.

**Mədəniyyət sənayesinin və yaradıcı iqtisadiyyatın inkişafı üçün təşkilati-hüquqi şəraitin formalaşdırılması**

7,7 milyon insanın (bütün dünya üzrə göstəricinin 32%-i) işlədiyi və 709 milyard ABŞ dolları məbləğində gəlir əldə edilən Avropa YMS bazarı böyüklüyünə görə dünyada ikinci yer tutur. Sadəcə Böyük Britaniyada 2014-cü ildə Yaradıcılıq Sahələrinin Ümumi Əlavə Dəyəri (ÜƏD) 111,6 milyard ABŞ dollarına bərabər olmuş və ölkə iqtisadiyyatının Yaradıcılıq və Mədəniyyət Sahələrinin (YMS) iqtisadi inkişafın tempinə təsiri bütün dünya ölkələrində siyasətçilər və hökumət orqanları tərəndən qəbul edilmiş faktdır. UNESCO tərəfindən hazırlanmış "Cultural times: The first global map of cultural and creative industries' (Yaradıcılıq və mədəniyyət sahələrinin ilk qlobal xəritəsi) hesabatında qeyd edilir ki, Yaradıcılıq və Mədəniyyət Sahələrində 2013-cü ildə 29,5 milyon nəfər işlə təmin edilmiş, 2250 milyard ABŞ dolları gəlir əldə edilmişdir. Böyük Britaniyada YMS-in inkişafında belə ciddi nəticələrin əldə edilməsi heç də təsadüfi deyil. Belə ki, Böyük Britaniya YMS sektorlarının inkişafı üzrə Avropanın aparıcı ölkələrindən biri hesab olunur. Ölkədə işlə təmin olunan əhalinin 7.58 %-i bu sahədə işləyir ki, bu da Avropa üzrə ümumi östərici olan 5.8%-dən çoxdur (2011-2013). Bu nəticələr son 60 il ərzində dövlət tərəfindən incəsənət sektoruna qoyulmuş, yaradıcılıq sahələrinin daha geniş miqyaslı inkişafı üçün bazanı formalaşdırmış səmərəli investisiyalar sayəsində mümkün olmuşdur.

Dizaynerlər, musiqiçilər və rejissorlar öz yaradıcılıqları, istedadları ilə Böyük Britaniyaya dünya yaradıcılıq və mədəniyyət xəritəsində layiqli mövqe qazandırmışlar. Onlar ölkənin iqtisadi inkişafında da böyük rol oynamışlar. Böyük Britaniyanın yaradıcılıq sahələrində əldə edilən illik ümumi gəliri 94.2 milyard ABŞ dolları (2012) təşkil edir. 1.71 milyon insan işlə təmin edilmişdir ki, bu da Mançester şəhərinin əhalisindən dörd dəfə çoxdur. Biz, bu sektorun daha da inkişaf etdirilməsinin və buna görə də yaradıcılıq sahələrinin müvəffəqiyyətini təmin edə biləcək şəraitin formalaşdırılması, gənclərin Britaniyanın indiyədək dünyaya bağışladığı məşhur istedadların yolunu davam etdirməyə həvəsləndirilməsi istiqamətində hökumətlə sektorun nümayəndələrinin birlikdə fəaliyyət göstərməsinin tərəfdarıyıq.
- Vince Cable (Vins Keybl), keçmiş Biznes, İnnovasiyalar və İxtisaslı Kadrlarla İşlər Naziri






Mədəniyyət vəYaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı




Mədəniyyət vəYaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı






Mədəniyyət və Yaradıcılıq
Avropa İttifaqı - Şərq Tərəfdaşlığı Proqramı

“Mədəniyyət ilə dünyanı dəyiş” kampaniyasının rəhbəri: Dadaş Məmmədov

Proqram Avropa İttifaqı tərəfindən maliyyələşdirilir Proqram Soros Fondu Moldova,
Polşa Milli Mədəniyyət Mərkəzi və Höte İnstitutu ilə əməkdaşlıq çərçivəsində
British Council-in rəhbərlik etdiyi konsorsium tərəfindən idarə olunur

Rəssam: Zöhrab Salam-zadə

Yaradıcı insanlar haqqında maraqlı əhvalatlarınızı
bizə göndərin komiksler@artscouncil.az

**Qeyd**

“Komikslər” Avropa İttifaqının Şərq Tərəfdaşlığı Mədəniyyət və Yaradıcılıq Proqramının dəstəyi ilə tərtib olunub. Sözügedən komikslərin məzmunu Avropa ittifaqının rəsmi nöqteyi-nəzərini əks etdirmir.
Komikslərdə öz əksini tapmış məlumatlara və fikirlərə görə məsuliyyət tamamilə müəllifin üzərinə düşür.

“Mədəniyyət və Yaradıcılıq” Avropa İttifaqının
Şərq Tərəfdaşlığı programı 2015-2018

www.culturepartnership.eu

Program Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

BRITISH COUNCIL

soros FOUNDATION moldova

NATIONAL CENTRE FOR CULTURE POLAND

GOETHE INSTITUT

Komikslar

2017